*Azərbaycanın dövlət müstəqilliyinin*
*bərpasının 30-cu ildönümünə həsr olunur.*

**Azərbaycan İqtisadiyyatı**
**(infoqrafika)**

**İdeya və mətnin müəllifləri:** Ədalət Muradov, Elşən Bağırzadə

**Dizayner:** Ülvi Məmmədov

**I Nəşr:** Dekabr 2021

**ISBN:** 978-9952-548-27-3

© Ədalət Muradov, Elşən Bağırzadə - bütün hüquqları qorunur.

---

Hazır materiallar əsasında "Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.

ŞƏRQ-QƏRB

AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 370 68 03, 374 83 43
Faks: (+99412) 370 68 03, 370 18 49
www.eastwest.az

Çapa imzalanmışdır: 15.12.2021
Formatı: 60x90 ⅛. Fiziki çap vərəqi: 26
Ofset çap üsulu. Sifariş: 2587. Tiraj: 300

# AZƏRBAYCAN İQTİSADİYYATI

## (infoqrafika)

**Ədalət Muradov** **Elşən Bağırzadə**

# İÇİNDƏKİLƏR


**ÖN SÖZ** .......... 11

**1. AZƏRBAYCAN İQTİSADİYYATININ TARİXİNƏ QISA BAXIŞ** .......... 13
**1.1. Çar Rusiyası dövründə Azərbaycan iqtisadiyyatı** .......... 14
**1.2. Azərbaycan Xalq Cumhuriyyəti: milli iqtisadiyyat yolunda ilk addımlar** .......... 15
**1.3. Sovet Azərbaycanı: sosialist iqtisadiyyatı və qoyduğu miras** .......... 16
**1.4. Azərbaycan Respublikası: bazar iqtisadiyyatının formalaşması** .......... 17

**2. QLOBAL İQTİSADİYYAT VƏ AZƏRBAYCAN** .......... 19
**2.1. Qlobal iqtisadiyyatda Azərbaycanın yeri** .......... 20
**2.2. Azərbaycanın qlobal reytinqlərdəki yeri** .......... 22
2.2.1. İqtisadi transformasiya indeksi / BTI Econmic Transformation Index .......... 23
2.2.2. Qloballaşma indeksi / KOF Globalization Index .......... 24
2.2.3. Qlobal rəqabətlilik indeksi / Global Competitiveness Index .......... 25
2.2.4. İqtisadi mürəkkəblik indeksi / Economic Complexity Index .......... 26
2.2.5. İnsan inkişafı indeksi / Human Development Index .......... 27
2.2.6. İqtisadi azadlıq indeksi / Index of Economic Freedom .......... 29
2.2.7. Biznes asanlığı indeksi / Ease of Doing Business Index .......... 30
2.2.8. Qlobal innovasiya indeksi / Global Innovation Index .......... 32
2.2.9. Qlobal sahibkarlıq indeksi / Global Entrepreneurship Index .......... 33
2.2.10. Beynəlxalq mülkiyyət hüquqları indeksi / International Property Rights Index .......... 34
2.2.11. Dünya enerji trilemma indeksi / World Energy Trilemma Index .......... 35
2.2.12. Şəbəkə hazırlığı indeksi / The Network Readiness Index .......... 36
2.2.13. Beynəlxalq elm reytinqi / SCIMAGO International Science Ranking .......... 37
2.2.14. Kövrək dövlətlər indeksi / Fragile States Index .......... 39
2.2.15. Qlobal gender bərabərsizliyi indeksi / Global Gender Gap .......... 40
2.2.16. Rifah indeksi / The Legatum Prosperity Index .......... 41
2.2.17. Xoşbəxtlik indeksi / World Happiness Index .......... 43
2.2.18. Qlobal ərzaq təhlükəsizliyi indeksi / Global Food Security Index .......... 44
2.2.19. Ekoloji performans indeksi / Environmental Performance Index .......... 45
**2.3. Azərbaycanın geoiqtisadi atlası** .......... 46

**3. AZƏRBAYCANIN İQTİSADİ SİSTEMİ** .......... 49
**3.1. İqtisadi sistemlər və Azərbaycanın yeri** .......... 50
**3.2. Azərbaycanda minimum əmək haqqı və tənzimlənən qiymətlər** .......... 51

4. İQTİSADİ SİYASƏT VƏ BAŞLICA RƏSMİ QURUMLARI ..... 53
4.1. İqtisadi siyasət ..... 54
4.2. İqtisadi siyasətin başlıca rəsmi qurumlar ..... 55
4.2.1. Mərkəzi Bank ..... 55
4.2.2. Maliyyə nazirliyi ..... 56
4.2.3. Iqtisadiyyat nazirliyi ..... 57
4.2.4. Kənd təsərrüfatı nazirliyi ..... 59
4.2.5. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ..... 62
4.2.6. Energetika nazirliyi ..... 63
4.2.7. Ekologiya və təbii sərvətlər nazirliyi ..... 64
4.2.8. Dövlət Gömrük Komitəsi ..... 65
4.2.9. Dövlət Neft Fondu ..... 66
4.2.10. Əmanətlərin Sığortalanması Fondu ..... 67
4.2.11. İpoteka və Kredit Zəmanət Fondu ..... 68
4.2.12. Hesablama palatası ..... 69

5. AZƏRBAYCANDA RESURSLAR VƏ ƏTRAF MÜHİT ..... 71
5.1. Fiziki resurslar ..... 72
5.1.1. Torpaq resursları ..... 72
5.1.2. Fauna və flora ..... 73
5.1.3. Su resursları ..... 74
5.1.4. Mədən resursları ..... 75
5.1.5. Enerji resursları ..... 76
5.2. İnsan resursları ..... 77
5.2.1. Əhali və onun inkişafı ..... 77
5.2.2. Əhalinin təhsil səviyyəsi ..... 78
5.2.3. Məşğulluq və işsizlik ..... 80
5.2.4. Sosial müdafiə ..... 81
5.3. Ətraf mühit və yaşıl iqtisadiyyat ..... 82

6. AZƏRBAYCANDA İQTİSADİ ARTIM ..... 87
6.1. İqtisadi artım ..... 88
6.2. İqtisadi artımın drayverləri ..... 91

7. ÜMUMİ DAXİLİ MƏHSUL (ÜDM) VƏ STRUKTURU ..... 93
7.1. ÜDM və hesablanması ..... 94
7.2. İqtisadi sektorlar ..... 96
7.2.1. Kənd təsərrüfatı ..... 96
7.2.2. Sənaye ..... 99
7.2.3. Xidmətlər ..... 101
7.3. İstehsal faktorları üzrə gəlirlər ..... 104
7.4. ÜDM-nin xərc strukturu ..... 105

8. MONETAR STRUKTUR ..... 107
8.1. Azərbaycan manatı ..... 108
8.1.1. Metal və kağız manatlar ..... 108
8.1.2. Manatın alıcılıq qabiliyyəti ..... 109
8.1.3. Azərbaycanda valyuta kursu rejimi və manatın xarici dəyəri ..... 111
8.2. Monetar parametrlər ..... 112
8.2.1. Emissiya ..... 112
8.2.2. Pul təklifi ..... 113
8.2.3. Pulun dövretmə sürəti ..... 114

9. DÖVLƏT SEKTORU ..... 115
9.1. Dövlət sektorunun strukturu ..... 116
9.1.1. Hökumət qurumları ..... 117
9.1.2. Dövlət şirkətləri ..... 118
9.1.3. Digər dövlət qurumları ..... 119
9.2. Dövlət maliyyəsi ..... 120
9.2.1. Büdcənin strukturu ..... 121
9.2.2. Büdcə statistikası ..... 122

10. ÖZƏL SEKTOR VƏ EV TƏSƏRRÜFATLARI ..... 125
10.1. Real sektor ..... 126
10.2. Maliyyə sektoru ..... 127
10.3. Ev təsərrüfatı sektoru ..... 130

11. AZƏRBAYCAN İQTİSADİYYATINDA BAŞLICA STRUKTUR DƏYİŞİKLİKLƏRİ VƏ İSLAHATLAR ..... 133
11.1. Struktur dəyişiklikləri ..... 134
11.2. Struktur islahatları ..... 137

**12. AZƏRBAYCAN İQTİSADİYYATININ REGİONAL STRUKTURU**....139
**12.1. İqtisadi rayonlar**....140
12.1.1. Bakı iqtisadi rayonu....141
12.1.2. Naxçıvan iqtisadi rayonu....142
12.1.3. Abşeron-Xızı iqtisadi rayonu....143
12.1.4. Dağlıq Şirvan iqtisadi rayonu....144
12.1.5. Gəncə-Daşkəsən iqtisadi rayonu....145
12.1.6. Qarabağ iqtisadi rayonu....146
12.1.7. Qazax-Tovuz iqtisadi rayonu....147
12.1.8. Quba-Xaçmaz iqtisadi rayonu....148
12.1.9. Lənkəran-Astara iqtisadi rayonu....149
12.1.10. Mərkəzi Aran iqtisadi rayonu....150
12.1.11. Mil-Muğan iqtisadi rayonu....151
12.1.12. Şəki-Zaqatala iqtisadi rayonu....152
12.1.13. Şərqi Zəngəzur iqtisadi rayonu....153
12.1.14. Şirvan-Salyan iqtisadi rayonu....154
**12.2. Regional iqtisadi inkişaf siyasəti**....155

**13. AZƏRBAYCAN İQTİSADİYYATININ TEXNOLOJİ İNKİŞAF SƏVİYYƏSİ**....159
**13.1. İKT-nin inkişaf səviyyəsi**....160
**13.2. İstehsalın texnoloji inkişaf səvviyyəsi**....163
**13.3. İxracın texnoloji inkişaf səviyyəsi**....165

**14. AZƏRBAYCANIN KARBOHİDROGEN EHTİYATLARINDAN İSTİFADƏSİ**....167
**14.1. Karbohidrogen ehtiyatlarının hasilatı layihələri**....168
14.1.1. "Əsrin müqaviləsi"....168
14.1.2. "Yeni əsrin müqaviləsi"....170
14.1.3. "Şahdəniz" layihəsi....171
**14.2. Karbohidrogen ehtiyatlarının nəqli layihələri**....172
14.2.1. Neft boru kəməri layihələri....172
14.2.2. Cənub Qaz Dəhlizi layihələri....173
**14.3. Karbohidrogen ehtiyatlarının hasilatı və ixracı statistikası**....175
14.3.1. Xam neft hasilatı və ixracı....175
14.3.2. Təbii qaz hasilatı və ixracı....176

**15. AZƏRBAYCANIN KARBOHİDROGEN GƏLİRLƏRİ VƏ İDARƏ EDİLMƏSİ**....177
**15.1. Neft və qaz gəlirləri**....178
**15.2. Neft və qaz gəlirlərinin idarə edilməsi**....179

**16. AZƏRBAYCANIN BEYNƏLXALQ İQTİSADİ VƏ MALİYYƏ QURUMLARI İLƏ ƏMƏKDAŞLIĞI**....183
**16.1. İqtisadi təşkilatlarla əməkdaşlıq**....184
16.1.1. BMT iqtisadi qurumları....184
16.1.2. Regional iqtisadi təşkilatlar....186
16.1.3. Dünya Ticarət Təşkilatı....188
**16.2. Maliyyə institutları ilə əməkdaşlıq**....189

**17. AZƏRBAYCANIN TƏDİYƏ BALANSI VƏ XARİCİ TİCARƏTİ**....191
**17.1. Tədiyə balansı**....192
**17.2. Xarici ticarət**....195

**18. AZƏRBAYCAN İQTİSADİYYATININ PERSPEKTİVLƏRİ**....201
**18.1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər**....202
**18.2. Beynəlxalq təşkilatların proqnozları**....204

**İSTİFADƏ EDİLƏN MƏNBƏLƏR**....207

## ÖNSÖZ

Bu il Azərbaycanın dövlət müstəqilliyinin bərpasından otuz il ötür. Ötən dövr ərzində Azərbaycan iqtisadiyyatı, əsasını Ümummili Lider Heydər Əliyevin qoyduğu strategiya üzrə özünəməxsus inkişaf yolu keçərək, aşağı gəlirli iqtisadiyyatlar qrupundan yüksək-orta gəlirli iqtisadiyyatlar qrupuna yüksəlmişdir. Bu dövrdə Azərbaycan iqtisadi problemlərini uğurla həll etməyi bacarmış, iqtisadi qüdrətinə dayanaraq, mühüm milli problemlərindən biri olan Qarabağın işğalına son qoymuş və vətən torpağı üzərində suverenliyini bərpa etmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən Qarabağın Azərbaycan iqtisadiyyatına reinteqrasiyası qarşıdakı illərdə ölkə üçün yeni iqtisadi reallıqlar doğurur. Azərbaycan iqtisadiyyatının daha da güclənməsi və dünya iqtisadiyyatına inteqrasiyasının daha da dərinləşməsi ilə nəticələnə biləcək bu proses yerli və xarici müşahidəçilərin Azərbaycan iqtisadiyyatına olan marağını da əhəmiyyətli dərəcədə artırır.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının otuz illiyinə həsr edilmiş bu kitabda ölkə iqtisadiyyatının tarixi inkişaf mərhələləri, struktur dəyişiklikləri, islahatları, perspektivləri və bütövlükdə inkişafının başlıca xüsusiyyətlərinin sadə və anlaşılan dildə hazırlanmış infoqrafikalar formasında oxucuya çatdırılması hədəflənmişdir. Ölkədə bu qəbildən ilk təşəbbüslərdən sayıla biləcək infoqrafik kitabdan Azərbaycan iqtisadiyyatı ilə maraqlanan hər kəsin, eləcə də "Azərbaycan iqtisadiyyatı" fənninin tədrisi zamanı tələbə və müəllimlərin faydalana biləcəyini düşünürük.

Kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürümüzü bildiririk.

Ümid edirik ki, bu kitab Azərbaycan iqtisadiyyatının keçmişi, bu günü və gələcəyi haqqında düşünənlərə müəyyən dərəcədə yardımçı olacaqdır...

**Ədalət Muradov**
**iqtisad elmləri doktoru, professor**

**Elşən Bağırzadə**
**iqtisad üzrə fəlsəfə doktoru, dosent**

# 1. AZƏRBAYCAN İQTİSADİYYATININ TARİXİNƏ QISA BAXIŞ



# 1.1. Çar Rusiyası dövründə Azərbaycan iqtisadiyyatı



Müasir ***Azərbaycan iqtisadiyyatının formalaşma prosesinin başlanğıcı*** ölkənin indiki sərhədlərinin ortaq bazar və ya vahid iqtisadi sistemə daxil olmağa başladığı XIX əsrin ilk yarısına təsadüf edir.

Azərbaycan son 200 illik tarixində ***üç iqtisadi sistem transformasiyası*** yaşamışdır: 1) XIX əsrin ikinci yarısında feodal sistemdən kapitalist sistemə; 2) 1920-ci ildən kapitalist sistemdən sosialist sistemə; 3) 1991-ci ildən sonra sosialist sistemdən təkrar kapitalist sistemə və ya yeni adı ilə bazar iqtisadiyyatına.

Azərbaycan torpaqları feodal strukturun hakim olduğu Çar Rusiyasının hakimiyyəti altına keçmədən əvvəl ***xanlıqlar***dan ibarət idi. Bu xanlıqlarda da iqtisadi həyat əsasən feodal münasibətlərinə əsaslanan neftçıxarma, əkinçilik və heyvandarlıqdan təşkil olunmuşdu.

Azərbaycan işğal edildikdən sonra Maliyyə Naziri Kankrinin planı əsasında ölkə Rusiya sənayesi və ticarəti üçün çox faydalı olaraq qiymətləndirilmiş və onun ***xammal tədarükçüsünə və satış bazarına çevrilməsi***nə start verilmişdir.

Azərbaycanın Çar hakimiyyətinin tabeliyinə düşməsi, ölkənin uzunmüddətli müstəmləkə iqtisadiyyatı mərhələsinə daxil olması ilə nəticələnsə də, xanlıqlar dövründən fərqli olaraq, məmləkətdə ortaq pul, maliyyə, vergi, gömrük və ticarət siyasətlərinin tətbiq edilməsi və böyük miqyaslı Rusiya bazarına çıxış imkanının ortaya çıxması ***iqtisadi fəaliyyətlərdə ciddi canlanma*** da yaratmışdır.

Çar Rusiyası, əvvəllər Azərbaycanda feodal strukturun möhkəmlənməsini təmin etmiş olsa da, XIX əsrin ikinci yarısından neft sektoru başda olmaqla iqtisadiyyatın digər sektorlarında ***kapitalist elementlər***in ortaya çıxmasına və kapitalist islahatlarına əngəl ola bilməmişdir.

XIX əsrin ikinci yarısından başlayaraq həyata keçirilən ***kapitalist islahatları*** Azərbaycanda kapitalist iqtisadi inkişaf prosesini sürətləndirmiş, qısa müddətdə məmləkətə böyük həcmdə xarici kapital axınını təmin etmiş və milli sahibkarlar sinifinin formalaşmasına yol açmışdır. Bütün bu proseslərin önündə isə Bakı şəhəri və onun neft sektoru olmuşdur. O zaman Bakı, Rusiya kapitalizminin inkişafında da mühüm rol oynamışdır. Belə ki, Bakı, nefti sayəsində Rusiya sənayesinin və bütün dəmiryollarının lokomotivi olmaqla yanaşı, özü də kifayət qədər əhəmiyyətli ticarət və sənaye mərkəzi halına gəlmiş bir liman şəhəri idi.

1872-ci ildən sonra Bakıda meydana gələn ***neft bumu*** nəticəsində başda Nobel Qardaşları və Rotşildlər olmaqla, dünyanın bir çox mühüm kapitalistləri Azərbaycanda neft və onunla əlaqəli sektorlara böyük həcmdə investisiyalar yatırmış və ölkəyə texnologiya transfert etmişlər. Bu kapitalistlər arasında Bakı xaricində investisiya edən ən məşhuru Simens Qardaşları olmuşdur. Onlar Azərbaycanın Gədəbəy bölgəsində mis mədənçıxraması və emalı sahələrinə böyük həcmdə investisiyalar etmişdir. Neftlə zəngin torpaqlara sahib olmaları sayəsində ortaya çıxan milli sahibkarların ən məşhurları isə Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev və Şəmsi Əsədullayev idi. Bunlardan Hacı Zeynalabdin Tağıyev xeyriyyəçiliyinə və neftdən əldə etdiyi gəlirləri ölkənin qeyri-neft sektorunun inkişafına yönəltdiyinə görə Azərbaycan tarixində xüsusi yer qazanmışdır.

XX əsrin əvvəllərində Azərbaycanın Abşeron Yarımadası, xüsusilə də Bakı şəhəri Asiya və Avropanın xam neft və neft məhsullarına olan ehtiyacının mühüm bir hissəsini ödəyən ***dünyanın böyük neft sənayesi mərkəzlərindən biri***nə çevrilmişdi. Belə ki, 1907-1914-cü illər arasında Azərbaycan, dünyanın illik neft istehsalının 15%-ni təmin etməklə ABŞ-dan sonra ikinci böyük neft istehsal mərkəzi idi. Lakin, Azərbaycan neftindən əldə edilən gəlirin mühüm bir hissəsi xaricə, xüsusilə də Qərbi Avropaya gedirdi. Çünkü Azərbaycanın neft sənayesində və çıxarılan neftində ən böyük pay sahibi əcnəbilər, xüsusilə də Avropalılar idi.

Azərbaycanda istehsal edilən neftin təxminən 13%-i neft sənayesi ehtiyaclarına və yerli istehlaka sərf edilir, yerdə qalan hissəsi isə Qaradəniz limanları və Xəzər üzərindən qonşu ölkələrə və Avropaya ixrac edilirdi. Ancaq işin qəribə tərəfi odur ki, zəngin neft yataqlarının yerləşdiyi Azərbaycan əyalətləri o dövrdə ***daim yanacaq və işıqlandırma çətinliyi*** çəkmişdir.

Çarlıq dövrünün sonlarına doğru Bakı sənaye bölgəsi xaricində, Azərbaycan bütövlükdə ***kənd təsərrüfatı ölkəsi*** idi. 1916-cı ilin məlumatlarına görə Azərbaycanda 2,2 milyon insan, başqa sözlə əhalinin 76,5%-i kənd təsərrüfatı sektorunda çalışırdı. Buxar və elektrik enerjisinin hələ gəlib çıxmadığı bu sektorda isə ən böyük paya sahib əkinçilikdən sonra heyvandarlıq, balıqçılıq, ipəkçilik və digər fəaliyyətlər əsas yerləri tuturdu.

***Azərbaycanın xarici ticarəti*** də təbii olaraq, istehsal strukturuna görə formalaşırdı. Ölkə, əsasən qonşulara və Avropa ölkələrinə neft və neft məhsulları, pambıq, yun, ipək, mis, biyan kökü, sənətkarlıq məhsulları kimi malları ixrac edir, parça, geyim, ərzaq məhsulları və texniki malları isə başda Avropa olmaqla, xarici ölkələrdən idxal edirdi.

Azərbaycanın o dövrdə emal sənayesi mallarında xaricdən asılılığı bir çox faktorlarla izah edilə bilər. Bunlar arasında ən əhəmiyyətlisi, Çar Rusiyasının Azərbaycanda həyata keçirdiyi müstəmləkə siyasəti idi. Bu dövrdə neft sənayesindəki inkişaf və bəzi kapitalist islahatları ilə ölkədə müəyyən iqtisadi canlanma yaransa da, ümumilikdə Azərbaycanda ***iqtisadi geriqalmışlıq*** hökm sürürdü.





# 1.2. Azərbaycan Xalq Cumhuriyyəti: milli iqtisadiyyat yolunda ilk addımlar

28 May 1918-ci ildə türk və islam dünyasının parlament sistemi ilə idarə edilən ***ilk demokratik respublika***sı – Azərbaycan Xalq Cumhuriyyəti qurulmuşdur. 23 ay sonra Sovet Qızıl Ordusunun Azərbaycanı işğalı nəticəsində süqut edən bu Respublika milli inkişaf yolunda attığı mühüm addımları ilə Azərbaycan tarixində misilsiz yer qazanmışdır.

Azərbaycan Xalq Cumhuriyyətinin iqtisadi siyasətinin əsas məqsədi, özündə mühüm dərəcədə feodal strukturu da qoruyan o vaxtki mövcud kapitalist müstəmləkə iqtisadiyyatını modern ***milli iqtisadiyyat***a çevirmək idi. Bu yolda atılmış ilk addımlar sırasında ölkədə gömrük sisteminin qurulması, malların sərbəst hərəkətinin və ticarətinin təmin edilməsi və milliləşdirilmiş neft sənayesi və ticarət donanmasının əvvəlki sahiblərinə qaytarılması böyük əhəmiyyət daşımışdır.

Milli hökumət, ***maliyyə sistemi***nin yenidən qurulması və tənzimlənməsi istiqamətində ilk öncə Azərbaycan Mərkəzi Bankını təsis etmiş və bu bank "Bakı bondları" adlı milli banknotlar buraxmış, dövriyyədəki pulun həcminin və bankçılıq fəaliyyətlərinin tənzimi və inflyasiya ilə mübarizəyə başlamışdır. Tətbiq edilən birbaşa və dolayı vergilərlə dövlət büdcəsinin dayanıqlılığının təmininə çalışılmış və maliyyə bazarlarının inkişafı baxımından da əhəmiyyətli olan Bakı bələdiyyə istiqrazları satışa çıxarılmışdır. Bütövlükdə milli parlament 23 aylıq qısa zaman kəsiyində maliyyə sisteminin tənzimlənməsi məqsədilə təxminən 82 qanun layihəsi hazırlamış və bunların əksəriyyəti də təsdiq edilmişdir.

Hökumət, qısa müddətdə ***dağıdılmış neft sənayesini və nəqliyyat sistemini*** yenidən hərəkətə gətirmişdir. Bakı-Batum neft boru xətti bərpa edilmiş, Bakı-Culfa dəmiryolu inşa edilmiş, Kür çayı üzərindən körpü salınmış və Xəzər Dənizində nəqliyyat sistemləri yenidən işə salınmışdır ki, bunlar da Azərbaycanın xarici iqtisadi əlaqələrinin yenidən qurulması və inkişafı baxımından fövqəladə əhəmiyyət daşımışdır.

Azərbaycanın ən böyük sıxıntılaırndan biri ***təhsilli insan sayının azlığı*** idi. Bu probemi həll etmək üçün milli hökumət qısa müddətdə məktəbləri milli hala gətirmiş, dərsliklər hazırlatdırmış və ya tərcümə etdirmiş, müxtəlif bölgələrdə pedaqoji məktəblər açmış, Bakı Dövlət Universitetini qurmuş, Azərbaycan türklərindən məmurlar yetişdirmək məqsədilə müxtəlif peşə məktəbləri yaratmış, 100-ə yaxın gənci ali təhsil almaları üçün Avropa ölkələrinə göndərmiş, təhsilə dəstək üçün Türkiyədən 50-ə qədər müəllim gətirmiş, kəndlərdə ibtidai və orta təhsili inkişaf etdirmək məqsədilə pedaqoji kurslar açmışdır.

Milli hökumət, xarici investisiyaların ölkə inkişafındakı əhəmiyyətini dərk edərək ***xarici sahibkarlar üçün əlverişli şərait*** yaratmağa çalışmışdır. Başda Nobel Qardaşları olmaqla müxtəlif xarici sahibkarlarla müqavilələrin yenilənməsinə və yeni müqavilələrin imzalanmasına başlamışdır. Xarici investisiyalarla yanaşı, xarici ticarət də hökumətin gündəmində olan əsas məsələlərdən idi. Bu baxımdan, milli iqtisadiyyatın ehtiyaclarına görə ixracın təşviqi, idxalın isə milli iqtisadi mənafelərə uyğun şəkildə məhdudlaşdırılması istiqamətində qanunlar qəbul edilmişdir. İxracına qadağa qoyulan bir çox məhsulun ixracı sərbəstləşdirilmiş, ölkə üçün zəruri olan 200-dən çox məhsul gömrük rüsumlarından azad edilmiş və gömrük qaçaqmalçılığı ilə ciddi mübarizə başladılmışdır.

Milli hökumət, ***beynəlxalq iqtisadi siyasət***ində bütövlükdə əvvəllər mövcud olan iqtisadi münasibətlərin qorunmasına və yeni ölkələrlə səmərəli iqtisadi əlaqələrin qurulmasına çalışmışdır. Bunun üçün ilk növbədə, Azərbaycanın inkişaf etmiş dünyaya tranzit geçidini təmin edən Gürcüstanla iqtisadi əlaqələr yenidən bərpa edilmiş və Bakı neftinin Batum üzərindən dünyaya ixracı reallaşdırılmışdır. Həmçinin Gürcüstan üzərindən Ukrayna, Türkiyə, İtaliya və digər Qərb ölkələri ilə də ticarət əlaqələri qurulmuşdur. Xüsusilə, ABŞ, Fransa, İngiltərə, Almaniya kimi ölkələrlə neftin ixracı və əvəzində o ölkələrdən sənaye məhsullarının idxalını nəzərdə tutan müvafiq müqavilələr imzalanmışdır.

Hökumət, xarici iqtisadi əlaqələrdə təbii olaraq, ilk öncə qonşu ölkələrə əhəmiyyət vermişdir. Qısa müddət ərzində Ermənistan, İran, Dağıstan və Orta Asiya ölkələri ilə iqtisadi əlaqələr qurulmuşdur. Hətta o dövrdə Azərbaycan büdcə gəlirlərinin 12,5%-i həcmində ***Dağıstana maliyyə yardımı*** da etmişdir.

Azərbaycan Xalq Cumhuriyyətinin ***iqtisadi proqramı bütövlükdə sosial yönümlü olmuş***dur. Əhalinin rifah səviyyəsinin, əmək şəraitinin yaxşılaşıdırılmasına xüsusi əhəmiyyət verilmişdir. Qısa müddət ərzində dövlət sektorunda çalışanlaırn maaşları artırılmış, ailəli və ailəsiz aşağı gəlirli vətəndaşlara aylıq əlavə ödəmələr edilmiş, əmək şəraitinin və iş saatlarının tənzimlənməsi ilə bağlı qaydalar tətbiq edilməyə başlanmışdır.

Azərbaycan o dövrdə də ***qaçqın və məcburi köçkün problemi*** ilə üzləşmişdir. Yalnız İrəvan bölgəsindən 150 min türk Azərbaycana sığınmağa məcbur qalmışdır. Hökumət bir tərəfdən bu insanların sosial-iqtisadi problemlərinin həllinə çalışmış, digər tərəfdən də Gürcüstan, Ermənistan və digər ölkələrdə yaşayan türklərə zəruri yardımlar etməyə başlamışdır.

Milli hökumət, ***kənd təsərrüfatının inkişaf etdirilməsi*** məqsədilə mikro kreditlər vermiş və torpaq islahatı qanun layihəsini hazırlamışdır. Bu qanun layihəsi torpaqsız və torpağı yetərsiz olan kəndliləri torpaqla təmin etmə məqsədi daşımışdır.

Hökumət, sahibkarlığın, xüsusilə də ***milli sahibkarlığın inkişafı***na böyük əhəmiyyət vermişdir. Sahibkarların parlament və hökumət fəaliyyətlərində aktiv iştirakına belə şərait yaradılmışdır.

Çar Rusiyasının 100 ildən çox əsarətində olmuş Azərbaycan, bu vəziyyətdən qurtularaq, öz müstəqil dövləti ilə milli inkişaf yoluna girmiş olsa da, bu, uzun müddət davam etməmiş və milli inkişaf prosesi bu dəfə ***Sovet Rusiyasının işğalı*** ilə dayanmışdır.



# 1.3. Sovet Azərbaycanı: sosialist iqtisadiyyatı və qoyduğu miras



1920-ci ildə Sovet Rusiyasının işğalından sonra Azərbaycanda ***kollektivləşdirmə və dövlətləşdirmə*** yolu ilə mərkəzi planlamaya əsaslanan bir sosialist iqtisadiyyatı formalaşdırılmaya başlanmışdır. Neft sektoru da daxil olmaqla, sənayenin demək olar ki, hamısı dövlət müəssisələrindən ibarət bir struktura çevrilmiş, kənd təsərrüfatı sektorunda isə "sovxoz" və "kolxoz" deyilən dövlət və kollektiv müəssisələri qurulmuşdur. Qurulmuş yeni sosialist iqtisadi sistemdə bazar, özəl mülkiyyət, sahibkarlıq azadlığı kimi anlayışlar tamamilə qadağan edilmiş və bu sistem müxtəlif inkişaf mərhələlərindən keçərək 1991-ci ilə qədər, təxminən 70 il Azərbaycanda hakim olmuşdur.

5 illik məcburi planlar əsasında idarə edilən sosialist iqtisadiyyatı dövründə Azərbaycan Sovet Sosialist Respublikası iqtisadiyyatı da Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) iqtisadiyyatının bir parçası halına gətirilmiş və ittifaq iqtisadiyyatı çərçivəsində formalaşdırılan əmək bölgüsü və ixtisaslaşma sisteminə inteqrasiya edilmişdir. Stalin dövründə Azərbaycanın neft sənayesi Sovet İttifaqının inkişafı və II dünya müharibəsini qazanmasında həlledici əhəmiyyət daşımışdır. Bu dövrdə, tarixdə ilk dəfə Xəzər dənizindən də müasir metodlarla neft çıxarılmasına başlanmışdır. Stalin dövrünün sonlarına (1950-ci illərin əvvəlləri) doğru Azərbaycan ümumilikdə ***"neft və pambıq respublikası"*** kimi tanınmışdır.

1950-ci illərdə Azərbaycanda bir çox sənaye müəssisələri qurulmuşdur. Bunlar ölkədə ciddi miqyasda məşğulluq imkanı yaratmış olsa da, xüsusilə Sumqayıt şəhəri nümunəsində çox ***böyük ekoloji problemlər***i də ortaya çıxarmışdır. Çünkü Moskva Azərbaycanın iqtisadi inkişafına elə də əhəmiyyət verməmişdir. Belə ki, 1960-78-ci illər arasında Azərbaycana Sovet respublikalarına orta hesabla yönəldilən investisiyaların yalnız 61%-i həcmində investisiya yönəldilmişdir (Swietochowski, 1995:179).

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-ci illər ***iqtisadiyyatın inkişafı və diversifikasiyası*** baxımından mühüm bir dövr olmuşdur. Rəsmi rəqəmlərə baxdıqda Azərbaycanda 1970-1980-ci illər arasında pambıq, buğda və üzüm istehsalının təxminən 2 dəfə artdığını, adambaşına gəlirin isə SSRİ orta göstəricisinin 62%-dən 80%-ə yüksəldiyini görmək mümkündür (Swietochowski, 1995:182). Həmçinin, 1976-1980-ci illər arasında Azərbaycan, SSRİ-də 47% kimi ən yüksək sənaye sektoru artımı əldə etmişdir (Cornell 2011:43).

1970-1985-ci illər arasında ***neft sektoru***nda sonradan müstəqillik dövrü üçün də çox əhəmiyyətli olacaq bəzi nəticələr əldə edilmişdir. Bu gün Azərbaycan neft sənayesinin əsasını təşkil edən "Azəri", "Günəşli" kimi neft yataqları bu dövrdə kəşf edilmiş, 1985-ci ildə fransız mütəxəssislərin də iştirakı ilə böyük həcmdə investisiya qoyularaq Bakı Dərin Dəniz Özüllər Zavodu tikilmişdir.

1970-ci illərdən başlayan iqtisadi inkişaf proseslərinə baxmayaraq, SSRİ-nin sonlarına doğru Azərbaycan adambaşına gəlir səviyyəsi baxımından hələ də Sovet İttifaqı orta göstəricisinə çata bilməmişdir. Xüsusilə 1985-1991-ci illər arasında ÜDM-nin 17% azalması nəticəsində Azərbaycan iqtisadiyyatı kifayət qədər zəifləmişdir. 1990-cı ildə Azərbaycan cəmiyyətin rifah səviyyəsi baxımından ***SSRİ-dəki 15 respublika arasında 10-cu sıra***da olmuşdur. O dövrdə Azərbaycanda orta aylıq əmək haqqı səviyyəsi də SSRİ orta göstəricisinin 1/3-i belə olmamışdır (The Republic of Azerbaijan, Poverty Reduction Strategy Paper, 2011:2).

Sovetlər Birliyinin sonlarına doğru Azərbaycan uzun müddət təbii resursları istismar edilən, məhdud sayda sektorlarda inkişafa nail olmuş, müstəqil xarici iqtisadi əlaqələrə malik olmayan, SSRİ xaricindəki dünyaya qapalı olan səmərəsiz bir ***sosialist iqtisadiyyatı***na sahib idi.





# 1.4. Azərbaycan Respublikası: bazar iqtisadiyyatının formalaşması



## *Slampflyasiya dövrü (1991-1995)*

Bir tərəfdən SSRİ-nin dağılması ilə sosialist iqtisadi strukturun çökməsi, digər tərəfdən isə Ermənistanın işğalçılıq siyasəti ilə ortaya çıxan müharibə və siyasi qeyri-sabitlik ***Azərbaycan iqtisadiyyatında ciddi problemlərə*** səbəb olmuşdur.

***Hiperinflyasiya*** şəraitində iqtisadiyyat davamlı kiçilmiş, işsizlik, valyuta kursu və büdcə kəsiri kimi göstəricilərdə ciddi dalğalanmalar ortaya çıxmış və ixrac idxalı qarşılaya bilməmişdir. Büdcə kəsirləri yüksək həcmdə pul emissiyaları ilə örtülməyə çalışılmış, uçot dərəcəsi və bank kredit faizləri çox yüksək səviyyələrə yüksəlmişdir.

İqtisadi qeyri-sabitliyə baxmayaraq, ***bazar iqtisadiyyatına keçid islahatları*** davam etdirilərək, milli pul vahidi "manat" dövriyyəyə çıxarılmış, qiymətlər sərbəstləşdirilmiş, mülkiyyət, xarici kapital, azad sahibkarlıq, sərbəst rəqabət, valyuta rejimi, bankçılıq, büdcə sistemi və özəlləşdirmə qanunvericiliyi hazırlanmış və tətbiq edilməyə başlanmışdır.





Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında 1994-cü ildə Ermənistanla imzalanan atəşkəs sazişi və əsas neft yataqları olan "Azəri", "Günəşli" və "Çıraq"ın işlənməsi üzrə dünyanın 7 ölkəsi və 11 məşhur neft şirkəti ilə bağlanan ***"Əsrin müqaviləsi"*** ölkənin gələcək inkişafı baxımından həlledici əhəmiyyət daşımışdır. Bu sənədlər Azərbaycanda ictimai nizamın və siyasi sabitliyin təmin edilməsi, ölkənin gələcək iqtisadi inkişafı və dünya iqtisadiyyatına inteqrasiyası baxımından fövqəladə əhəmiyyət daşımışdır.

## *İqtisadi sabitlik və bazar islahatları dövrü (1996-2003):*

- Ölkədə iqtisadi sabitlik təmin edilmiş və müstəqillikdən sonrakı dövrdə ilk dəfə olaraq 1996-cı ildə ***iqtisadi artım əldə edilmiş***dir.
- Azərbaycan, ***aşağı gəlirli ölkə*** statusunda qalsa da, adambaşına düşən gəlirini davamlı artırmış, inflyasiya, valyuta kursu və büdcə kəsiri kimi başlıca maliyyə və monetar göstəricilərdə sabitlik əldə etmişdir.
- İqtisadi sabitlik bazar islahatları üçün də əlverişli şərait yaratmış və ölkədə ***bazar iqtisadiyyatına keçid prosesinin əsas islahatları*** reallaşdırılmışdır. Kiçik və orta müəssisələrin özəlləşdirilməsi prosesi tamamlanmış, aqrar islahat aparılaraq torpaqlar və kənd təsərrüfatı müəssisələri əvəzsiz şəkildə kənd əhalisi arasında paylaşdırılmış, xarici ticarət sərbəstləşdirilmiş, sığorta, bankçılıq, sosial müdafiə, vergi, gömrük və sahibkarlara dövlət dəstəyi sistemləri yenidən qurulmuşdur.
- 1997-ci ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa neft ixrac boru kəmərləri istifadəyə verilmiş və uzun zaman sonra ***Azərbaycan nefti təkrar Qərbə doğru axmağa başlamış***dır.
- 1999-cu ildə Azərbaycan "Əsrin müqaviləsi"ndən əldə etdiyi ***ilk mənfəət neftini*** dünya bazarlarına çıxarmış və neft gəlirlərinin səmərəli şəkildə idarə edilməsi məqsədilə Dövlət Neft Fondunu təsis etmişdir. Bu dövrün sonuna doğru artıq neft sektorunun iqtisadiyyatdakı payı əhəmiyyətli dərəcədə artmış və 2000-ci ildən etibarən ölkədə böyük həcmdə xarici ticarət profsiti yaranmışdır.



## Neft bumu və sürətli iqtisadi artım dövrü (2004-2014)

▶ Bu dövr, neft sektorunda ortaya çıxmış güclü pozitif proseslər və iqtisadi idarəetmədə yeni yanaşmaların tətbiqi nəticəsində iqtisadiyyatın sürətlə böyüməsi və 2010-cu ildə rəsmi olaraq elan edilən ***iqtisadiyyatda keçid prosesinin tamamlanması*** ilə tarixə keçmişdir.



▶ Azərbaycanda neft istehsalı və ixracının ciddi bir şəkildə artdığı bu dövrdə, neft qiymətləri də 40 dollardan 165 dollara qədər yüksəlmiş və artan neft gəlirləri ***iqtisadiyyatda bum*** yaratmışdır. Dollara hesablanan ÜDM 10 dəfə və adambaşına ÜDM 9 dəfə artmış, iqtisadi artım ikirəqəmli səviyyələrə yüksəlmiş, inflyasiya artmış, işsizlik azalmış, milli valyuta dəyər qazanmış, xarici ticarət profsiti isə bir neçə dəfə yüksəlmişdir.

▶ Azərbaycan aşağı gəlirli ölkələr qrupundan əvvəlcə aşağı-orta gəlirli, oradan isə ***yüksək-orta gəlirli ölkələr qrupu***na yüksəlmişdir. Davamlı artan neft gəlirlərinin Dövlət Neft Fondundan dövlət büdcəsinə, oradan isə dövlət investisiyaları vasitəsilə iqtisadiyyata transfert edilməsi nəticəsində ölkədə infrastruktur xeyli yaxşılaşdırılmış və iqtisadiyyatın qeyri-ticari sektorlarında da ciddi bir artım yaşanmışdır.



▶ Kiçik və orta sahibkarlıq, özəlləşdirmə, sənaye, kənd təsərrüfatı, turizm, insan kapitalı, regional inkişaf, qida təhlükəsizliyi, məşğulluq və digər sahələrdə ***böyük miqyaslı hökumət proqramları və dövlət investisiyaları*** reallaşdırılmışdır.

▶ 2008-ci il Qlobal Maliyyə Böhranından sonra Azərbaycanın iqtisadi artım sürəti həm neft, həm də qeyri-neft sektorunda nəzərəçarpacaq dərəcədə yavaşlamış, hətta bəzi illərdə iqtisadi kiçilmə də qeydə alınmışdır. Bu dövr, əhəmiyyətli dərəcədə neft qiymətlərinin aşağı düşməsi, ölkədə neft istehsalı artımının mümkün sərhədlərinə yaxınlaşması və bunun qeyri-neft sektoru üzərindəki mənfi təsirləri ilə açıqlana bilər. Bu dövrün sonlarına doğru ***neft sektoru iqtisadi artımın lokomotivi olma funksiyasını getdikcə itirməyə başlamış***dır.

## Post-neft dövrü (2015 ve sonrası)

2014-cü ilin yayından başlayaraq neft qiymətlərinin sürətlə aşağı düşməsindən sonra Azərbaycan iqtisadiyyatında yaşanılan problemlər qarşısında hökumət iqtisadiyyatın artıq ***post-neft dövrü***nə daxil olduğunu və bundan sonra iqtisadi artımın əsasən qeyri-neft sektoruna əsaslanacağını bəyan etmişdir.

***Neft qiymətlərinin sürətlə aşağı düşməsinin mənfi təsiri***, ilk növbədə Azərbaycanın tədiyyə balansına, sonra da iqtisadi artımın maliyyələşmə kanalları üzərindən iqtisadi fəaliyyətlərə keçmişdir. ABŞ dolları milli pul qarşısında təxminən 2 dəfə dəyər qazanmış, maliyyə sabitliyinin qorunması sahəsində bəzi risklər ortaya çıxmış və dövlət borc ödəmələri üzrə maliyyə yükü artmışdır.

Bu dövrdə iqtisadiyyatın rəqabətliliyini qoruyub saxlamaq məqsədilə Mərkəzi Bank qısa fasilələrlə 2 dəfə ***devalvasiya*** qərarı vermişdir.

Hökumət, iqtisadi artımın əsasən qeyri-neft sektoru hesabına təmin edilməsi məqsədilə müxtəlif tədbirlər almağa başlamış və bu sahədə orta və uzun müddətli siyasətləri nəzərdə tutan ***strateji yol xəritələri*** qəbul etmişdir.

Yeni dövrdə hökumət, neft-kimya, kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq, ağır və maşınqayırma sənayesi, turizm, logistika və ticarət, mənzil, peşə təhsili, maliyyə xidmətləri, informasiya texnologiyaları və ictimai infrastruktur xidmətləri sektorlarını ***prioritet sektorlar*** olaraq elan etmişdir.

Son dövrlər pandemiyanın gətirdiyi iqtisadi poblemlərə baxmayaraq, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2020-ci ildə əldə edilən Qarabağ Zəfəri Azərbaycan üçün yeni iqtisadi perspektivlər açmışdır. ***Qarabağın bərpası və yenidən qurulması***, yaranan regional əməkdaşlıq imkanları qarşıdakı illərdə Azərbaycan iqtisadiyyatının inkişaf perspektivlərini əhəmiyyətli dərəcədə müəyyən edəcək amillər olaraq qiymətləndirilə bilər.



# 2. QLOBAL İQTİSADİYYAT VƏ AZƏRBAYCAN



## 2.1. Qlobal iqtisadiyyatda Azərbaycanın yeri

### Azərbaycanın qlobal iqtisadiyyatdakı yeri, 2019

| | ÜDM (milyard $) | Əhali (milyon nəfər) | Adambaşına gəlir ($) |
|---|---|---|---|
| Yüksək gəlirli ölkələr | 55141 | 1236 | 44612 |
| Orta gəlirli ölkələr | 32088 | 5769 | 5561 |
| Aşağı gəlirli ölkələr | 541 | 668 | 810 |
| Dünya | 87770 | 7673 | 11433 |
| Azərbaycan | 48 | 10 | 4793 |
| Azərbaycan / Dünya (%) | 0,05 | 0,13 | 41,92 |



### Azərbaycanın cari qiymətlərlə ÜDM həcminə görə dünyadakı yeri, milyard $

| Reytinq | Ölkə | 1995 | Reytinq | Ölkə | 2000 | Reytinq | Ölkə | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | ABŞ | 7639,75 | 1 | ABŞ | 10252,35 | 1 | ABŞ | 21433,23 |
| 2 | Avro bölgəsi | 7516,52 | 2 | Avro bölgəsi | 6497,50 | 2 | Çin | 14342,90 |
| 3 | Yaponiya | 5449,12 | 3 | Yaponiya | 4887,52 | 3 | Avro bölgəsi | 13356,06 |
| 4 | Almaniya | 2585,79 | 4 | Almaniya | 1943,15 | 4 | Yaponiya | 5081,77 |
| 5 | Fransa | 1601,09 | 5 | Birləşmiş Krallıq | 1657,82 | 5 | Almaniya | 3861,12 |
| 14 | Rusiya | 395,54 | 18 | Türkiyə | 274,43 | 12 | Rusiya | 1699,88 |
| 23 | İndoneziya | 202,13 | 21 | Rusiya | 259,71 | 17 | İndoneziya | 1119,19 |
| 25 | Türkiyə | 169,49 | 27 | Norveç | 171,25 | 20 | Türkiyə | 761,43 |
| 28 | Norveç | 152,03 | 28 | İndoneziya | 165,02 | 28 | İran | 454,00 |
| 36 | İran | 96,42 | 37 | İran | 109,59 | 53 | Qazaxıstan | 181,67 |
| 50 | Ukrayna | 48,21 | 59 | Ukrayna | 31,26 | 57 | Ukrayna | 153, |
| 66 | Qazaxıstan | 20,37 | 73 | Qazaxıstan | 18,29 | 76 | Belarus | 63,08 |
| 73 | Belarus | 13,97 | 78 | Özbəkistan | 13,76 | 80 | Özbəkistan | 57,92 |
| 76 | Özbəkistan | 13,35 | 81 | Belarus | 12,74 | 82 | Litva | 54,63 |
| 89 | Litva | 7,87 | 86 | Litva | 11,52 | 88 | Dem. Konqo | 50,40 |
| 126 | Monako | 3,13 | 115 | Nepal | 5,49 | **89** | **Azərbaycan** | **48,05** |
| **127** | **Azərbaycan** | **3,05** | **116** | **Azərbaycan** | **5,27** | 90 | İordaniya | 44,50 |
| 128 | Mozambik | 2,84 | 117 | Nikaraqua | 5,11 | 92 | Türkmənistan | 40,76 |
| 131 | Gürcüstan | 2,69 | 134 | Gürcüstan | 3,06 | 116 | Gürcüstan | 17,48 |
| 132 | Türkmənistan | 2,48 | 138 | Türkmənistan | 2,90 | 129 | Ermənistan | 13,67 |
| 145 | Moldova | 1,75 | 144 | Ermənistan | 1,91 | 134 | Nikaraqua | 12,52 |
| 147 | Qırğızıstan | 1,66 | 154 | Qırğızıstan | 1,37 | 138 | Moldova | 11,97 |
| 148 | Ermənistan | 1,47 | 155 | Moldova | 1,29 | 142 | Qırğızıstan | 8,45 |
| 155 | Tacikistan | 1,23 | 167 | Tacikistan | 0,86 | 143 | Taciksitan | 8,12 |

### Azərbaycanın ixrac həcminə görə dünyadakı yeri, milyard $

| Reytinq | Ölkə | 1995 | Reytinq | Ölkə | 2000 | Reytinq | Ölkə | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | ABŞ | 812,81 | 1 | ABŞ | 1096,26 | 1 | Çin | 2641,27 |
| 2 | Almaniya | 568,73 | 2 | Almaniya | 599,42 | 2 | ABŞ | 2514,75 |
| 3 | Yaponiya | 488,88 | 3 | Yaponiya | 519,27 | 3 | Almaniya | 1810,59 |
| 4 | Fransa | 362,21 | 4 | Birləşmiş Krallıq | 417,75 | 4 | Yaponiya | 917,873 |
| 5 | Birləşmiş Krallıq | 342,84 | 5 | Fransa | 389,53 | 5 | Birləşmiş Krallıq | 894,08 |
| 15 | Çin | 131,86 | 9 | Çin | 253,09 | 6 | Fransa | 862,77 |
| 16 | Rusiya | 115,85 | 17 | Rusiya | 114,43 | 16 | Rusiya | 481,29 |
| 25 | Norveç | 56,53 | 25 | Norveç | 78,32 | 27 | Türkiyə | 249,30 |
| 27 | İndoneziya | 53,19 | 30 | Türkiyə | 54,53 | 30 | İndoneziya | 206,02 |
| 32 | Türkiyə | 33,71 | 46 | İran | 23,53 | 33 | Norveç | 149,03 |
| 40 | Ukrayna | 22,70 | 49 | Ukrayna | 19,52 | 48 | Qazaxıstan | 65,83 |
| 43 | İran | 20,90 | 59 | Qazaxıstan | 10,35 | 50 | Ukrayna | 63,32 |
| 59 | Qazaxıstan | 7,94 | 62 | Belarus | 8,82 | 60 | Litva | 42,31 |
| 61 | Belarus | 6,94 | 80 | Litva | 4,45 | 61 | Belarus | 41,91 |
| 88 | Litva | 2,92 | 92 | Özbəkistan | 3,39 | 70 | Qana | 24,10 |
| 97 | Türkmənistan | 2,08 | 106 | Dem. Konqo | 2,19 | **71** | **Azərbaycan** | **23,63** |
| 116 | Moldova | 1,05 | **107** | **Azərbaycan** | **2,12** | 72 | Estoniya | 22,95 |
| 118 | Svazilənd | 1,02 | 108 | Sudan | 1,96 | 80 | Özbəkistan | 18,07 |
| **119** | **Azərbaycan** | **0,99** | 112 | Türkmənistan | 1,60 | 93 | Gürcüstan | 9,58 |
| 120 | Mavritaniya | 0,87 | 127 | Tacikistan | 0,75 | 103 | Türkmənistan | 9,24 |
| 123 | Taciksitan | 0,81 | 131 | Gürcüstan | 0,70 | 110 | Ermənistan | 5,63 |
| 126 | Gürcüstan | 0,69 | 135 | Moldova | 0,64 | 123 | Moldova | 3,76 |
| 136 | Qırğızıstan | 0,49 | 139 | Qırğızıstan | 0,57 | 125 | Qırğızıstan | 3,16 |
| 141 | Ermənistan | 0,35 | 147 | Ermənistan | 0,42 | 155 | Tacikistan | 1,13 |

**Mənbə: data.worldbank.org**



## 2.2. Azərbaycanın qlobal reytinqlərdəki yeri

| REYTİNQLƏR | AZƏRBAYCANIN YERİ | MƏNBƏ |
|---|---|---|
| İqtisadi transformasiya indeksi | 76 / 137 | BTI Transformation Index, 2020 |
| Qloballaşma indeksi | 69 / 203 | 2020 KOF Globalization Index |
| Qlobal rəqabətlilik indeksi | 58 / 141 | The Global Competitiveness Report, 2019 |
| İqtisadi mürəkkəblik indeksi | 124 / 133 | Economic Complexity Index, 2018 |
| İnsan inkişafı indeksi | 88 / 189 | Human Development Report, 2020 |
| İqtisadi azadlıq indeksi | 38 / 169 | 2021 Index of Economic Freedom, 2021 |
| Biznes asanlığı indeksi | 34 / 190 | Doing Business, 2020 |
| Qlobal innovasiya indeksi | 82 / 131 | Global Innovation Index, 2020 |
| Qlobal sahibkarlıq indeksi | 56 / 136 | Global Entrepreneurship Index, 2019 |
| Beynəlxalq mülkiyyət hüquqları indeksi | 67 / 131 | 2020 International Property Rights Index, 2020 |
| Dünya enerji trilemma indeksi | 36 / 108 | World Energy Trilemma Index, 2020 |
| Şəbəkə hazırlığı indeksi | 66 / 134 | The Network Readiness Index, 2020 |
| Beynəlxalq elm reytinqi | 93 / 240 | SCIMAGO International Science Ranking, 1996-2020 |
| Kövrək dövlətlər indeksi | 71 / 179 | Fragile States Index, 2021 |
| Qlobal gender bərabərsizliyi indeksi | 100 / 156 | Global Gender Gap Report, 2021 |
| Rifah indeksi | 78 / 167 | The Legatum Prosperity Index, 2020 |
| Xoşbəxtlik indeksi | 90 / 149 | World Happiness Report, 2021 |
| Qlobal ərzaq təhlükəsizliyi indeksi | 56 / 113 | Global Food Security Index, 2020 |
| Ekoloji performans indeksi | 72 / 180 | Environmental Performance Index, 2020 |





## 2.2.1 İqtisadi transformasiya indeksi / BTI Economic Transformation Index

- "İqtisadi transformasiya indeksi" Bertelsman Fondu tərəfindən hazırlanan "Bertelsmann Transformasiya İndeksi"-nin (BTI) 3 alt-indeksindən biridir. 7 kriteriya üzrə inkişaf etməkdə olan və keçid ölkələrində bazar iqtisadiyyatının formalaşma səviyyəsini qiymətləndirir.
- Azərbaycan iqtisadi transformasiya indeksi üzrə dünya reytinqini 137 ölkə arasında 2018-ci ildəki 85-ci yerdən 2020-ci ildə 76-cı yerə ***yüksəltmiş***dir.

**Azərbaycanın iqtisadi transformasiya indeksi üzrə reytinq, 2020**

| Reytinq (1-137) | Ölkə | İndeks (1-10) |
|---|---|---|
| 1 | Çexiya | 9,79 |
| 2 | Tayvan | 9,43 |
| 3 | Sloveniya | 9,39 |
| 4 | Estoniya | 9,29 |
| 5 | Litva | 9,11 |
| 50 | Rusiya | 6,11 |
| 50 | Türkiyə | 6,11 |
| 54 | Qazaxıstan | 6,04 |
| 74 | Belarus | 5,39 |
| **76** | **Azərbaycan** | **5,25** |
| 98 | Özbəkistan | 4,54 |
| 113 | Taciksitan | 3,71 |
| 127 | İran | 2,79 |
| 128 | Türkmənistan | 2,68 |

**Azərbaycanın 2018-2020-ci arasında iqtisadi transformasiya indeksi üzrə göstəricilərinin dəyişmə meyli**

| | 2018 | 2020 | Dəyişmə |
|---|---|---|---|
| İQTİSADİ STRANSFORMASİYA İNDEKSİ | 4,82 | 5,25 | + |
| 1. Sosial iqtisadi inkişaf səviyyəsi | 4,0 | 5,0 | + |
| 2. Bazarın və rəqabətin təşkili | 4,3 | 4,8 | + |
| 3. Monetar və fiskal stabillik | 6,0 | 7,0 | + |
| 4. Xüsusi mülkiyyət | 4,5 | 4,5 | sabit |
| 5. Rifah rejimi | 5,5 | 5,5 | sabit |
| 6. İqtisadi performans | 5,0 | 6,0 | + |
| 7. Dayanıqlılıq | 4,5 | 4,0 | - |

**Azərbaycanın 2020 iqtisadi transformasiya indeksinin kriteriyalar üzrə balları (1-10)**




Mənbə: https://www.bti-project.org/

## 2.2.2. Qloballaşma indeksi / KOF Globalization Index

- "Qloballaşma indeksi", KOF İsveçrə İqtisadiyyat İnstitutu tərəfindən 1970-ci ildən başlayaraq illər üzrə nəşr edilir və "iqtisadi qloballaşma, "sosial qloballaşma" və "siyasi qloballaşma" alt-indekslərindən ibarətdir.
- Azərbaycan iqtisadi qloballaşma alt-indeksi üzrə dünya reytinqini 2010-2018 illər arasında 87-ci yerdən 42-ci yerə ***yüksəltmiş***dir.







**Azərbaycanın 2020 KOF qloballaşma indeksi üzrə dünyadakı reytinqi, 2018**

| Reytinq (1-203) | Ölkə | İndeks (1-100) |
|---|---|---|
| 1 | İsveçrə | 90,79 |
| 2 | Niderland | 90,68 |
| 3 | Belçika | 90,46 |
| 4 | İsveç | 89,44 |
| 5 | Birləşmiş Krallıq | 89,39 |
| 12 | Norveç | 85,47 |
| 20 | Estoniya | 82,91 |
| 25 | ABŞ | 82,28 |
| 30 | Litva | 81,15 |
| 44 | Ukrayna | 74,95 |
| 49 | Rusiya | 71,94 |
| 53 | Gürcüstan | 71,58 |
| 58 | Türkiyə | 70,57 |
| 67 | Moldova | 68,34 |
| **69** | **Azərbaycan** | **67,76** |
| 72 | Belarus | 67,59 |
| 83 | Qazaxıstan | 64,14 |
| 89 | Qırğızıstan | 62,32 |
| 123 | İran | 53,79 |
| 132 | Özbəkistan | 52,40 |
| 144 | Tacikistan | 50,84 |
| 188 | Türkmənistan | 40,72 |

**Azərbaycanın iqtisadi qloballaşma alt-indeksi üzrə dünya reytinqi**






Mənbə: https://kof.ethz.ch/en/





## 2.2.3. Qlobal rəqabətlilik indeksi / Global Competitiveness Index

- "Qlobal rəqabətlilik indeksi", ölkələrin vətəndaşlarını yüksək səviyyədə rifahla təmin etmək bacarığını qiymətləndirmək məqsədilə Dünya İqtisadi Forumu tərəfindən hazırlanır.



**Azərbaycanın qlobal rəqabətlilik indeksi üzrə dünya reytinqi, 2019**

| Reytinq (1-141) | 2018-ci illə müqayisədə dəyişmə | Ölkə |
|---|---|---|
| 1 | +1 | Sinqapur |
| 2 | -1 | ABŞ |
| 3 | +4 | Honq-Konq |
| 4 | +2 | Niderland |
| 5 | -1 | İsveçrə |
| 17 | -1 | Norveç |
| 31 | +1 | Estoniya |
| 43 | = | Rusiya |
| 55 | +4 | Qazaxıstan |
| **58** | **+11** | **Azərbaycan** |
| 61 | = | Türkiyə |
| 69 | +1 | Ermənistan |
| 74 | -8 | Gürcüstan |
| 85 | -2 | Ukrayna |
| 86 | +2 | Moldova |
| 96 | +1 | Qırğızıstan |
| 99 | -10 | İran |
| 104 | -2 | Tacikistan |

**Azərbaycanın qlobal rəqabətlilik profili, 2019**

| | Azərbaycanın dünya reytinqi (1-141) | Ən yaxşı praktika |
|---|---|---|
| QLOBAL RƏQABƏTLİLİK İNDEKSİ | 58 | Sinqapur |
| **Əlverişli mühit** | | |
| İnstitutlar | 49 | Finlandiya |
| İnfrastruktur | 38 | Sinqapur |
| İKT adaptasiyası | 73 | Koreya Resp. |
| Makroiqtisadi stabillik | 103 | 33 ölkə |
| **İnsan kapitalı** | | |
| Səhiyyə | 98 | 4 ölkə |
| Bacarıqlar | 48 | İsveçrə |
| **Bazarlar** | | |
| Məhsul Bazarı | 23 | Honq-konq |
| Əmək Bazarı | 21 | Sinqapur |
| Maliyyə sistemi | 96 | Honq-konq |
| Bazarın miqyası | 67 | Çin |
| **İnnovasiya ekosistemi** | | |
| Biznesin dinamizmi | 23 | ABŞ |
| İnnovasiya qabiliyyəti | 68 | Almaniya |

Mənbə: http://gcr.weforum.org/

## 2.2.4. İqtisadi mürəkkəblik indeksi / Economic Complexity Index

- İqtisadi mürəkkəblik indeksi, Harvard Universiteti tərəfindən nəşr edilir və ölkələrin ixrac səbətinin çeşitliliyini və mürəkkəbliyini ölçür.

**Azərbaycanın iqtisadi mürəkkəblik indeksi üzrə dünya reytinqi, 2018**

| Reytinq (1-133) | Son 5 ildə dəyişmə (2013-2018) | Ölkə |
|---|---|---|
| 1 | = | Yaponiya |
| 2 | +1 | İsveçrə |
| 3 | +4 | Koreya Resp. |
| 4 | -2 | Almaniya |
| 5 | = | Sinqapur |
| 9 | = | Macarıstan |
| 29 | -7 | Belarus |
| 40 | +2 | Türkiyə |
| 43 | -8 | Norveç |
| 44 | -1 | Ukrayna |
| 59 | -11 | Qırğızıstan |
| 64 | +1 | Rusiya |
| 65 | -1 | Gürcüstan |
| 71 | -18 | Moldova |
| 80 | +18 | Özbəkistan |
| 93 | +16 | Qazaxıstan |
| 101 | -31 | İran |
| 106 | +11 | Türkmənistan |
| 116 | -4 | Tacikistan |
| **124** | **+1** | **Azərbaycan** |

**Azərbaycan və bəzi ölkələrin iqtisadi mürəkkəblik indeksi üzrə dünya reytinqinin dəyişməsi**




Mənbə: https://atlas.cid.harvard.edu/rankings





## 2.2.5. İnsan inkişafı indeksi / Human Development Index

- İnsan inkişafı indeksi BMT İnkişaf Proqramı tərəfindən nəşr edilir və ölkənin insan inkişafı sahəsində uğur səviyyəsini ölçür. İndeks, ölkənin səhiyyə, təhsil və gəlir göstəriciləri əsasında tərtib edilir.

**Azərbaycanın insan inkişafı indeksi üzrə dünya reytinqi, 2019**

| Reytinq (1-189) | Status | Ölkə |
|---|---|---|
| 1 | Çox yüksək insan inkişafı | Norveç |
| 2 | Çox yüksək insan inkişafı | İrlandiya |
| 2 | Çox yüksək insan inkişafı | İsveçrə |
| 4 | Çox yüksək insan inkişafı | Honq-Konq |
| 4 | Çox yüksək insan inkişafı | İslandiya |
| 34 | Çox yüksək insan inkişafı | Litva |
| 51 | Çox yüksək insan inkişafı | Qazaxıstan |
| 52 | Çox yüksək insan inkişafı | Rusiya |
| 53 | Çox yüksək insan inkişafı | Belarus |
| 54 | Çox yüksək insan inkişafı | Türkiyə |
| 61 | Çox yüksək insan inkişafı | Gürcüstan |
| 70 | Yüksək insan inkişafı | İran |
| 74 | Yüksək insan inkişafı | Ukrayna |
| **88** | **Yüksək insan inkişafı** | **Azərbaycan** |
| 90 | Yüksək insan inkişafı | Moldova |
| 106 | Yüksək insan inkişafı | Özbəkistan |
| 111 | Yüksək insan inkişafı | Türkmənistan |
| 120 | Orta insan inkişafı | Qırğızıstan |
| 125 | Orta insan inkişafı | Tacikistan |

**İnsan İnkişafı İndeksi, 2019**






**Azərbaycanın insan inkişafı indeksi və komponentləri, 1995-2019**

| | İnsan İnkişafı İndeksi | Komponentlər | | | |
|---|---|---|---|---|---|
| | | Doğulanda gözlənilən ömür müddəti (il) | Gözlənilən təhsil müddəti (il) | Orta təhsil müddəti (il) | Adambaşına düşən ümumi milli gəlir (2017 PPP$) |
| 1995 | 0,604 | 65,3 | 10,0 | 10,2 | 2992 |
| 2000 | 0,635 | 66,8 | 10,4 | 10,6 | 3960 |
| 2005 | 0,674 | 68,7 | 10,7 | 10,7 | 6298 |
| 2010 | 0,726 | 70,9 | 11,2 | 10,5 | 13509 |
| 2015 | 0,744 | 72,3 | 11,9 | 10,5 | 14441 |
| 2016 | 0,751 | 72,5 | 12,9 | 10,5 | 13434 |
| 2017 | 0,754 | 72,7 | 13,0 | 10,6 | 13513 |
| 2018 | 0,754 | 72,9 | 12,9 | 10,6 | 13598 |
| 2019 | 0,756 | 73,0 | 12,9 | 10,6 | 13784 |







Mənbə: http://hdr.undp.org/

## 2.2.6. İqtisadi azadlıq indeksi / Index of Economic Freedom

- İqtisadi azadlıq indeksi, "Heritage" Təşkilatı tərəfindən 4 qrupa daxil olan 12 göstərici əsasında tərtib edilir.



**Azərbaycanın iqtisadi azadlıq indeksi üzrə dünya reytinqi, 2021**

| Reytinq (1-178) | Status | Ölkə |
|---|---|---|
| 1 | Azad | Sinqapur |
| 2 | Azad | Yeni Zellandiya |
| 3 | Azad | Avstraliya |
| 4 | Azad | İsveçrə |
| 5 | Azad | İrlandiya |
| 8 | Əsasən azad | Estoniya |
| 12 | Əsasən azad | Gürcüstan |
| 20 | Əsasən azad | ABŞ |
| 28 | Əsasən azad | Norveç |
| 34 | Əsasən azad | Qazaxıstan |
| 37 | Əsasən azad | Belçika |
| **38** | **Əsasən azad** | **Azərbaycan** |
| 39 | Orta dərəcədə azad | İspaniya |
| 76 | Orta dərəcədə azad | Türkiyə |
| 78 | Orta dərəcədə azad | Qırğızıstan |
| 85 | Orta dərəcədə azad | Moldova |
| 92 | Orta dərəcədə azad | Rusiya |
| 95 | Orta dərəcədə azad | Belarus |
| 108 | Əsasən qeyri-azad | Özbəkistan |
| 127 | Əsasən qeyri-azad | Ukrayna |
| 134 | Əsasən qeyri-azad | Tacikistan |
| 167 | Repressiv | Türkmənistan |
| 168 | Repressiv | İran |

**Azərbaycanın iqtisadi azadlıq indeksinin komponentləri, 2021**

| QANUNUN ALİLİYİ | | DÖVLƏTİN ÖLÇÜSÜ | |
|---|---|---|---|
| Mülkiyyət hüquqları (0-100) | 67,9 | Vergi yükü (0-100) | 88,1 |
| Məhkəmənin effektivliyi (0-100) | 55,8 | Dövlət xərcləri (0-100) | 65,2 |
| Dövlətin sağlamlığı (0-100) | 46,8 | Fiskal sağlamlıq (0-100) | 99,4 |
| **TƏNZİMLƏMƏNİN SƏMƏRƏLİLİYİ** | | **BAZARLARIN AÇIQLIĞI** | |
| Biznes azadlığı (0-100) | 80,5 | Ticarət azadlığı (0-100) | 68,0 |
| Əmək azadlığı (0-100) | 65,9 | İnvestisiya azadlığı (0-100) | 70,0 |
| Monetar azadlıq (0-100) | 73,2 | Maliyyə azadlığı (0-100) | 60,0 |




Mənbə: https://www.heritage.org/index/

## 2.2.7. Biznes asanlığı indeksi / Ease of Doing Business Index

